# "İŞIĞA GEDƏN YOL"

## Haqdan yanan işığa açılan qapı

***I yazı***

**Öncə yazı masamın üstündə özünə əməlli-başlı yer tutmuş, bu masanın daimi sakininə çevrilmək haqqını qazanmış kitabın tərtibatı haqqında Həqiqətən bu kitabın naşirləri çap mədəniyyətini tam orijinal bir şəkildə, diqqəti, fikri yönəltmək səviyyəsində olan bir iş görüblər. İki hissəlik, təqribən 800 səhifəyə yaxın olan bu kitabı əlinə götürəndə adamın kitaba bir qanı qaynayır. Elə bilirsən ki, əlində çox doğma, çox məhrəm bir nəsə tutmusan. Və o doğma olan duyğular səni bu tərtibatın sahiblərinə minnətdarlıq hissləri üstündə kökləyir. Həmçinin kitabın rəssamı həm rəng seçimi, həm də yolun özünü təqdim etmək məharətilə istədin-istəmədin səni o yolun yolçusu olmağa bir növ təhrik edir. Sanki kimsə arxadan səni o yola doğru itələyir və sən özündən asılı olmadan əlini o yolun qapısına tərəf uzadırsan. Bax, onda yadına düşür ki, bu qapı işığa açılır. Təkcə yadına düşmür, həm də o tərtibat özü bunu sənə diqtə edir...**

Bəli, bütün bunlardan sonra təbii ki, hər bir yeni sözə, yeni nəşrə marağı olan oxucu kimi mən də qeyri-ixtiyari o qapını döyürəm. O qapını ki onun adı "İşığa gedən yol"dur. Müəllifi də Sona Vəliyeva...

Deməli, iki hissədən ibarət olan bu romanı çox qısa bir vaxtda oxudum. Və kitabı belə bir qısa vaxtda oxumağım barəsində dostuma fikrimi söyləyəndə üzümə çox qəribə bir baxışlarla baxdı. Hiss etdim ki, inanmadı. Amma həqiqətən də mən bu kitabı iki gecəyə bitirdim. Onsuz da ərşə çəkilən yuxumu bu kitab laylay kimi elə ovutdu ki, mən özüm də ovundum. Çünki bu kitabın həm qəhrəmanı, həm onun yazı dili mənə çox doğma gəldi. Doğrudur, romanın qəhrəmanı Azərbaycan mətbuatının banisi, Azərbaycan qəzetçiliyinin yaradıcısı Həsən bəy Zərdabidir. Və bir azərbaycanlı, bir az-çox təhsili olan insan kimi mən Həsən bəy Zərdabi barəsində müəyyən bilgilərə malik idim. Üstəlik onun "Əkinçi" qəzeti də həmişə qəzetçilərin, mətbuat adamlarının gününün-güzəranının içərisində olubdur. Bax, buna görə də mən romanı oxumağa başlayanda artıq söhbətin kimdən getdiyini bilirdim. Və bu bilgini də mənə kitabın annotasiyası vermişdi. Sadəcə etiraf edim ki, mən müəllifin poeziyasına bələd idim və onun nəsr dilindən o qədər də məlumatım yox idi. Bu səbəbdən də kitabı bir az həvəssiz, bir az özümü məcbur etmək üstündə oxumağa başladım. Yenə deyirəm, həvəssizliyim Həsən bəy Zərdabi haqqında az-çox bilgili olmağımdan, məcburiyyətim isə həm real güzəranımdan, hava şəraitindən, eləcə də müəllifin nəsr yaradıcılığından xəbərsiz olmağımdan qaynaqlanırdı. Şükürlər olsun ki, mən bu kitabın özünün yaratdığı auranın içərisinə tez daxil ola bildim. Və elə kitabın ilk səhifəsindən başlayaraq yavaş-yavaş müəllifin sifarişçisi olduğu havaya kökləndim. Bu hava əslində "Həsən bəy" havası idi. Hava da sözün həqiqi mənasında ürəyə yatırdı. Çünki söhbət Həsən bəy Zərdabinin şəcərəsindən başlanmışdı, kimliyindən qaynaqlanmışdı. Və müəllif ortaya qoyduğu bu tarixi romanın birinci hissəsində oxucuya Həsən bəy Zərdabinin, bütövlükdə Məlikovların kimliyini, neçiliyini, məramını, məqsədini, hardan gəlib hara getdiyini bir-bir açmağa, bir-bir göz önündə pöhrədən bar ağacına çevirməyə nail olmuşdu. Və mən də Məlikovlar barəsində bildiyim məhdud bilgidən artıq daha geniş bilgi müstəvisinə çıxmaq imkanı qazanmışdım. Həm də onu vurğulayım ki, bu işdə mənə ən çox yardım edən müəllifin ədəbi dillə danışıq dilinin bir-birinə qovuşan nöqtəsində qələmini işlətməsi oldu. Yəni oxuduqca təmtəraqlı, pafoslu, bir az da fəlsəfi yüklü ədəbi cümlələrlə yox, onların özünün öz çəkisində, xalqın danışıq dili müstəvisinə gətirməsi mənim kitabı daha həvəslə oxumağıma şərait yaratdı. Hər abzasda ilk sözdən fikrin hara yönələcəyini, cümlənin necə bitəcəyini artıq təxmin etmək mənim üçün bir öz yazım, öz sözüm fikrini formalaşdırırdı. Oxucu kimi öz-özümə qərar verirdim ki, məhz mən də bu cümləni, bu sözü belə yazıb belə tamamlayardım. Ola bilsin ki, söylədiyim bu fikir hardasa ya müəllifin, ya da digər oxucuların dili ilə üst-üstə düşməsin və yaxud da bu fikrimi qəbul etməsinlər. Mən bundan heç də narahat deyiləm. Ona görə ki, "İşığa gedən yol" mənə bu cür təsir edib, məndə bu düşüncəni formalaşdırıbdır.

Romanı oxuduqca mənə elə gəldi ki, həm də bir tarix dərsliyini və yaxud ədəbiyyat tariximizə bir əlavə vəsaiti mütaliə edirəm. Çünki bu tarixi romanda hadisələr tarixin özündən götürülməklə bədiiləşdirilmişdir. Yəni hadisənin vaxtı, məkanı, iştirakçısı dəyişdirilməyib. Amma onların fikirləri, onların düşüncələri müəllifin




qələminin, istedadının sayəsində tarixdən ədəbiyyata bir körpü olubdur, bir işığa gedən yola çevrilibdir. Əgər bu romanı Həsən bəy Zərdabinin kimliyindən, şəxsiyyətindən xəbəri olmayan hər hansı bir oxucu mütaliə etsə, o, həm Həsən bəyi tanıyacaq, həm də o zaman kəsiyinin Azərbaycan tarixindən xəbərdar olacaqdır. Mən bu romanda Həsən bəy Zərdabi yaşamının, həyatının coğrafiyasını da izləyə bildim. Onun Zərdabdan Şamaxıya, Şamaxıdan Tiflisə, Tiflisdən Moskvaya, oradan Sankt-Peterburqa və sonra Bakı, Gəncə, İrəvan, Naxçıvan və digər səyahətlərinə qoşulub mən də getdim. Hər yerdə işıq kimi görünən Həsən bəy elə özü də işığın üstünə gedir. Çünki onu qarşılayanlar özləri də işıqdırlar və bu adamlar ədəbiyyatımızın, tariximizin işıqları kimi müxtəlif bölgələrə səpələniblər. Müəllif Sona Vəliyeva öz qələminin gücü ilə və bir də gərgin axtarışların, tarixi mənbələrə baş vurmanın sayəsində o işıqları, o şamları bir şamdana gətirib toplayıbdır. Bu da oxucuya imkan verir ki, Həsən bəyin çevrəsində olanlarla, onların kimlikləri ilə tanışlıq imkanı qazansın, belə bir fürsət əldə etsin.

Bəli, bu gün romanın I hissəsi barəsində fikirlərimi oxucularla bölüşərkən özüm üçün çıxartdığım nəticəni sərgiləmək, ifadə etmək istəyirəm. Mənim oxucu məntiqimə görə əsərin I hissəsi Həsən bəy Zərdabinin uşaqlıq, yeniyetmə və gənclik illərini əhatə edir. Bu dövrdə o, özünün böyük arzularına gedən yolun ipucunu tapır. Onun elmdən, təhsildən keçdiyini, oradan başladığını bilir. Və ali təhsilli dövlət məmuru olan Həsən bəyi məmurluqdan müəllimliyə transfer edir. Çünki o, işıq axtarır, işıq sorağındadı. İkinci, əsərin birinci hissəsində müəllif Həsən bəyin ideyalarını, arzularını oxucu qarşısında sıraya düzür, onun nə istədiyini oxucuya çatdırır. Üçüncü, bu hissədə müəllif Həsən bəyin bir insan, bir vətəndaş, bir azərbaycanlı, nəhayət, bir bəy kimi çalarlarını müxtəlif ştrixlərlə oxucu üçün ifadə edir. Bu həm də bir növ köklü tanıtma, təqdim etmədir. Dördüncüsü, bu hissədə müəllif Həsən bəyin doğmalara, dostlara münasibətini, həmçinin sevgiyə münasibətini şərh edir. Şəxsən mənim üçün Həsən bəy Zərdabinin özəl həyatı, onun sevgi dünyası bu romanda müəllif qələmi elə pardaqlanır ki, o ülvi sevginin qarşısında yalnız susmaq qalır. Bunu müəllif elə bir inandırıcı formada, elə bir səmimi şəkildə ifadə edir ki, oxucuya yalnız susub düşünmək qalır. Axı, hər cür imkanı, əlaqələri, titulu, mövqeyi olan ailənin qızından böyük amal naminə, müqəddəs istək xətrinə üz çevirib yalnız içində sevgini dostluqla əvəz etmək, o çərçivənin içində saxlamaq hər insanın, hər kişinin işi deyil. Bunu Həsən bəyi sevən, onun üçün hər şeyə hazır olan Veranın timsalında görmək mümkündür. Və yaxud Bakı həyatında onun üçün divanə olan və özünün də biganə qalmadığı qonşu binada kirayənişin yaşayan Taclıbəyim xanıma qarşı tutduğu mövqe o qədər ölçülüb-biçilmiş, o qədər inandırıcıdır ki, bir oxucu kimi mən bu səhnəni həqiqətən film kimi təsəvvür etdim. Özü də real həyat filmi! Çünki sevginin pik nöqtəsində ehtirasları idarə edə bilmək, bakirəliyi, namusu, şərəfi hər şeydən üstün tutmaq o qədər də asan iş deyil və bunu hər kəs də bacarmır. Ümumiyyətlə, romanın birinci hissəsində Həsən bəy Zərdabinin həyatının sevgi çalarları fonunda ailə-məişət münasibətləri də diqqət mərkəzində saxlanılır. Evin içi və çölü idarə olunur. Valideynə, anaya münasibət ən yüksək mərtəbədə durur...

**Bu romanda Azərbaycan təbiəti, onun əsrarəngizliyi də tərənnüm edilir. Bu tərənnümün içində folklor, həmçinin atalar sözləri, Molla Nəsrəddinin lətifələri bir təşbeh, həm də vasitə kimi də qabardılır. Oxucu bu ədəbi priyomla yorğunluqdan xilas olur. Mən romanın birinci hissəsində diqqət çəkən bir məqamla da qarşılaşdım. O da Həsən bəy Zərdabinin bir-biriylə qovuşdurduğu ədəbi məclislərdi. Dövrün ziyalıları, ictimai-siyasi xadimləri, el ağsaqqalları və nəhayət, Azərbaycan ədəbi mühitinin, teatrının oyanış ştrixləridir. Bütün bunlar Sona Vəliyevanın romanının birinci hissəsində zaman ardıcıllığı ilə təqdim olunur. Romanın birinci hissəsində həmçinin Həsən bəyin böyük ideyaları gerçəkləşdirmək üçün təşəbbüsündə olduğu xeyriyyə cəmiyyətinin yaradılması prosesidir. Bu prosesin özünün təqdimatı həmin dövrün bütün qatlarını oxucuya göstərir. Azərbaycan mülkədarlarının, bəylərinin, qoçularının nəyə qadir olduqlarını, nəyi özlərinə məslək etdiklərini büruzə verir. Romanın birinci hissəsi həm də Həsən bəyin ailə həyatı qurması və bu ailənin öz çiyinlərinə daha böyük vəzifələri götürməsi ilə yekunlaşır. Təbii ki, bu məqamda artıq Həsən bəyin həyatında olan öncəki iki sevgi məqamının nədən uğursuz olduğu aşkarlanır. Və məlum olur ki, bütün sevgiləri millətə, xalqa xidmətə söykənən, ondan qaynaqlanan Həsən bəy öz həyatını, öz ömrünü onun çəkdiyi yükə çiyin verməyə hazır olan xanımla bir olanda tamamlayır. Bax, bu yerdə bir oxucu olaraq müəllif bizi roman boyu əlimizdən tutub gətirdiyi yolun həqiqətən işıqdan keçdiyinə inandırır.**

**Əbülfət MƏDƏTOĞLU**